# Qələbədən – qələbəyə

***Azərbaycanın Ermənistan üzərində qazandığı tarixi qələbədən bir ildən artıq vaxt keçir. Bu müddət ərzində Qarabağda aparılan yenidənqurma və bərpa işləri ölkəmizin iqtisadi qüdrətini bir daha dünyaya nümayiş etdirir. Qısa müddət ərzində iri layihələrin – avtomobil və dəmir yollarının bərpası, enerji sisteminin yenidən qurulması, mürəkkəb relyefə malik Qarabağda – Füzuli, Zəngilan və Laçın rayonlarında hava limanlarının, eləcə də tunellərin tikintisi, xəstəxana, məktəb və yaşayış komplekslərinin təməlinin qoyulması və digər sahələrdə geniş start götürən tikinti-bərpa işləri tarixi qələbəmizin nəticəsidir. Artıq dünya ictimaiyyəti də regionda yeni reallıqların şahididir. Düşmən üzərində qazandığımız şanlı qələbə ölkəmizi qələbədən-qələbəyə aparır.***



Təbii ki, bu tarixi qələbə xalqımıza asanlıqla başa gəlmədi. 30 il davam edən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dünyada baş alıb gedən ikili standartların, islamofobiyanın, ermənipərəstliyin mövcudluğu ucbatından öz həllini tapmırdı. Bir sıra beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli münasibəti, işğalçını öz adı ilə çağırmağa cürət etməməsi, xüsusilə, problemin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun ermənipərəst mövqeyi, münaqişənin dondurulmasına çalışması işğalçı Ermənistanı qonşu dövlətin daha çox ərazisini zəbt etməyə şirnikləndirirdi. Beynəlxalq hüquq normalarına açıq şəkildə hörmətsizlik edən Ermənistan getdikcə daha da həyasızlaşır, "böyük Ermənistan" dövləti yaratmaq ideyasını reallaşdırmağa cəhd edirdi.

Prezident İlham Əliyev münaqişənin dinc vasitələrlə, danışıqlar masası arxasında həllinə çalışırdı. Dövlətimizin başçısı effektiv diplomatik fəaliyyəti ilə hər dəfə buna nail olmağa yaxınlaşan anda Ermənistan rəhbərliyi müxtəlif vasitələrlə danışıqlar masasından uzaqlaşırdı. Dövlət başçımız siyasi fəaliyyətində münaqişə boyunca bütün aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığa üstünlük verdi və problemin həlli üçün zəngin hüquqi baza hazırladı. Bu uğurlu diplomatik fəaliyyətin nəticəsi olaraq, dünyanın aparıcı beynəlxalq təşkilatları– BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər qurumlar Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazlərindən qeyd-şərtsiz çıxması barədə qətnamələr qəbul etdi.

**(ardı 3-cü səhifədə)**

# Qələbədən-qələbəyə



(əvvəli 1-ci səhifədə)

Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərildi. Bütün bunlar münaqişənin həlli üçün hüquqi əsaslar idi. Ölkə başçısı apardığı düşünülmüş strategiya sayəsində dünya birliyinə sübut etdi ki, Qarabağ əzəli Azərbaycan torpağıdır!

Digət tərəfdən, Azərbaycanın getdikcə artan iqtisadi qüdrəti və siyasi nüfuzu sayəsində Ermənistan beynəlxalq layihələrin autsayderinə çevrildi. Eyni zamanda, bütün regional layihələrdən təcrid olundu. Dünyanın aparıcı şirkətləri, o cümlədən, qüdrətli dövlətləri investisiyanı, ilk növbədə, davamlı sabitliyi, iqtidar-xalq həmrəyliyi olan ölkələrə qoyurlar. Ermənistandan fərqli olaraq , Azərbaycan transmilli layihələr ilə regionda tamamilə yeni mənzərə yaratdı. Ölkəmiz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Azərbaycanın təşəbbüsləri təkcə xalqımızın deyil, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən, region ölkələrinin. Bu baxımdan, Azərbaycanın, beynəlxalq nüfuzu getdikcə gücləndi. Ermənistan isə işğalçı ölkə kimi yerində sayırdı. Buna baxmayaraq, həm işğalçıya, həm də işğala məruz qalmış ölkəyə eyni münasibət bəslənilməsi nəticəsində beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr kağız üzərində qaldı. Ötən dövr ərzində Azərbaycan sülhməramlı mövqe nümayiş etdirərək daim beynəlxalq hüquqa sadiqliyini təsdiqiləmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Digər bir mötəbər beynəlxalq təşkilat – BMT Təhlükəsizlik Şurası münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həlli istiqamətində 4 qətnamə qəbul etsə də , işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlar verməklə işini bitmiş hesab etmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi icra olunmadan 27 il kağız üzərində qalmışdır.

Dövlət başçımızın düzgün müəyyənləşdirdiyi xarici siyasət kursu Ermənistanın işğalçılıq siyasətini ifşa edirdi. Artıq nüfuzlu beynəlxalq təşkilatlar da Prezident İlham Əliyevin tutarlı faktları qarşısında aciz qalırdı. Xüsusilə qeyd edilməlidir ki, 15 fevral 2020-ci ildə keçirilmiş Münxen Təhlükəsizlik Konfransında dövlət başçımızın arqumentləri həm Ermənistana, həm də havadarlarına ciddi zərbə oldu. Konfrans çərçivəsində Azərbaycanın və Ermənistanın dövlət başçılarının iştirakı ilə keçirilmiş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrində Ermənistanın işğalçılıq siyasəti və yalanlar üzərində qurulmuş dövlətçilik tarixi tamamilə tənəzzülə uğradı. Dövlət başçımızın həmin tədbirdəki çıxışları, moderatorun suallarına verdiyi səlis cavabları tarixi sübutlara, beynəlxalq hüququn norma və prinsiplərinə istinad olunmaqla, həm də diplomatik ustalıqla iştirakçıların diqqətinə çatdırılmışdır.

Hər dəfə Ermənistanın siyasi rəhbərliyi Qarabağla bağlı olan tarixi və hüquqi faktları özlərinə sərf edən şəkildə şərh edir və dünya ictimaiyyətini də bu yalanlara inandırmağa çalışırdı. Ancaq bu dəfə işğalçı ölkənin siyasi rəhbərliyi bu görüşdən qaça bilmədi. Bu dəfə yalan nə ayaq tutdu, nə də yeridi. Bu görüşün məhz Münxen konfransında baş tutması Azərbaycan üçün daha çox vacib idi. Daha dəqiq desək, Qarabağın işğaldan azad edilməsi yolunda Ermənistana və havadarlarına ciddi zərbə idi. Necə deyərlər, düşmən üzərində gələcək qələbənin başlanğıcı idi. Ona görə ki, konfransın işində Avropanın və dünyanın bir sıra beyin mərkəzləri, təhlükəsizlik üzrə mütəxəssislər, tarixçilər və siyasətçilər iştirak edirdilər. Belə bir tərkibə malik olan auditoriyaya Qarabağla bağlı olan faktların olduğu kimi çatdırılması daha məqsədəuyğun və strateji cəhətdən vacib idi.

Prezident İlham Əliyevin paneldəki müzakirələr zamanı söylədiyi faktlar Ermənistan rəhbərliyini çətin vəziyyətə saldı. Dövlət başçımızın münaqişənin tarixi ilə bağlı çıxışında səsləndirdiyi "Münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün, hər şeydən öncə, biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkənin ayrılmaz tərkib hissəsidir" – fikri böyük maraqla qarşılandı.

Xankəndinin ermənilərə məxsus bir şəhər olmasını hər vəchlə əsaslandırmağa çalışan Ermənistan baş nazirininin fikirlərini Prezident İlham Əliyev bir daha tarixi faktlarla alt-üst edərək bildirdi: "Paytaxtın qədim adı Xankəndidir – Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu, bir daha onu sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə, bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür".

Bundan sonra beynəlxalq ictimaiyyətdə Ermənistanın yalanlarına inamsızlıq yarandı. Təsadüfi deyil ki, Ermənistan üzərində qazandığımız qələbənin məhz Münxendən başlandığını inamla deyirik. 2020-ci ilin Tovuz hadisələrində Ermənistan ordusunun susdurulması həmin il noyabrın 10-da işğalçı ölkənin kapitulyasiya aktını imzalamağa məcbur edilməsi qələbəyə aparan yolun davamı idi. Baxmayaraq ki, həmin vaxta qədər 2016-cı ilin Aprel döyüşlərində və Naxçıvandakı Günnüt kəndinin azad edilməsi yolunda silahlı qüvvələrimizin qəhrəmanlığı Ermənistan üçün ibrət olmadı.

Son illər ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, silahlı qüvvələrdə aparılan islahatlar və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı fəaliyyətinin nəticəsidir. Azərbaycan Ordusu maddi-texniki təchizat, döyüş hazırlığı və döyüş ruhu baxımından, eyni zamanda, ən müasir silahlarla təmin olunması baxımından tam üstünlüyə malikdir. Bu gün rəşadətli ordumuz istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır. 44 gün davam edən Vətən müharibəsində də əsgər və zabitlərimiz yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərdi.




Qazandığımız rəşadətli qələbə ilə Ermənistanın uzun illər davam edən işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın tarixi qələbəsinin, Vətənin hər qarış torpağının müdafiəsi uğrunda canından keçməyə hazır olduğunu gördü. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq işi uğrunda mübarizəsini sona qədər davam etdirdi və zəfər çaldı. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etmədi, həm də erməni mifini heçə endirdi. Bu Zəfər sayəsində "Ermənistanın güclü ordusu var" və "erməni xalqı döyüşkən xalqdır" kimi miflərə birdəfəlik son qoyuldu.

Uzun illər həyata keçirilən uğurlu daxili və xarici siyasət, dövlət başçımızın qətiyyəti, siyasi iradəsi və düşünülmüş strategiyası Azərbaycanı qələbədən-qələbəyə aparır. Hazırda respublikamız dünyada qalib ölkə kimi tanınır. Azərbaycanın tarixinə qələbə səhifəsi yazmış Prezidentə xalqın etibarı və ehtiramı sonsuzdur. Söz yox ki, tarixi qələbəmizin qazanılmasında xalqın birliyi, siyasi həmrəylik mühüm rol oynadı.

Hər zaman xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad edilmiş ərazilərə səfərləri ilə öz sevinclərini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək, dünyaya tanıtmaq əzmində olduğunu əyani nümayiş etdirirlər. Bir vaxtlar düşmən tapdağı altında qalmış bütün ərazilərimizdə hazırda Azərbaycan bayrağı dalğalanır. Döyüş meydanında qazandığımız qələbə Qarabağda aparılan yenidənqurma, tikinti-bərpa işlərində də özünü büruzə verir.

Azərbaycanın qələbəsi regiona yeni əməkdaşlıq formatları və qonşu ölkələr arasında strateji tərəfdaşlıq üçün yeni perspektivlər açır. Azərbaycanı qələbədən-qələbəyə aparan bu siyasi kurs regionun inkişafı üçün əlavə stimul olacaq. Bütün bunlar həm üçtərəfli, həm də ikitərəfli formatlarda fəal əməkdaşlıq imkanları yaradacaq. Sözügedən amil tarixi, iqtisadi, nəqliyyat, geosiyasi və ən başlıcası, bu regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından olduqca önəmlidir.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*